# Azərbaycan Rusiya ilə birgə turizmin inkişafında yeni mərhələ açır...

**Azərbaycan Dövlət Turizm Agentliyi ortaq turizm layihələrinin həyata keçirilməsi ilə bağlı rusiyalı tərəfdaşlarla danışıqları davam etdirir. Bu barədə mətbuata açıqlamasında Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kənan Quluzadə məlumat verib.**



Onun sözlərinə görə, Tərəflər Şimali Qafqaz istiqamətində birgə pilot layihələr yaratmaq üçün mümkün variantları nəzərdən keçirirlər: "Hazırda tərəflər qarşıdan gələn ilin sonuna qədər başlaya biləcək birgə layihələrin təfərrüatlarını müzakirə edirlər. Hər iki tərəf, xüsusilə bu günə qədər istifadə edilməmiş böyük potensialı nəzərə alaraq turizm sahəsində sıx əməkdaşlıqda maraqlıdır. Layihələr Azərbaycan və Rusiya arasındakı yeni turizmin marşrutların yaradılmasına, həmçinin kurort və sanatoriya istiqamətinin inkişafına yönəlib".

Qeyd etmək lazımdır ki, Azərbaycanda Rusiyanın kurort və sanatoriya sektoruna maraq hər il, xüsusən Şimali Qafqazdakı Mineralnıye Vodı kurortları ilə əlaqəli populyarlığı ilbeil artır.

## *Çingiz İsmayılov: "İki ölkənin birgə turizm layihələri həyata keçirməsinin perspektivi var"*

Xüsusilə, Şimali Qafqazda Azərbaycan sərmayələri ilə tikilən bir neçə sanatoriya var, bunlardan biri Essentukidəki müasir "İstoçnik"(Mənbə) sanatoriyasıdır, bu layihəyə qoyulan ümumi sərmayə 1,5 milyard rubl təşkil edib. Bundan əlavə, tərəflər Kislovodskda bir spa kompleksi və Jeleznovodskda bir sanatoriya inşa etmək üçün ortaq bir layihə üzərində işləyirlər. Bu obyektlərin istismara verilməsi 2020-ci ilə planlaşdırılıb.

Bütün bunların fonunda iki ölkə arasımda yaradılması nəzərdə tutulan ortaq turizm layihələrinin perspektivini ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılovun sözlərinə görə, iki ölkənin birgə turizm layihələri həyata keçirməsinin perspektivi var: "Müxtəlif yollar axtarmaq lazımdır ki, turizm industriyası rərabətə davamlı olsun. Nəinki MDB məkanından, Yaxın Şərqdən, Avropadan turistlər gəlsin. Ancaq bunun üçün ilk növbədə düşünülmüş siyasət aparılmalıdır. Rusiya turistlərini cəlb etmək üçün Azərbaycanın potensialı böyükdür. Ancaq biz servis səviyyəsinə və qiymətlərə görə Gürcüstana uduzuruq. Rusiya turistləri daha çox isti dənizlərə can atır. Bizdə dəniz çirkləndiyi üçün rus turistlər başqa alternativlər seçməli olur. Ancaq Azərbaycanın rus turistlərini cəlb etmək üçün ənənəvi üstünlükləri var. Sözügedən üstünlüklər ondan ibarətdir ki, azərbaycanlılar daha qonaqpərvərdir, milli mətbəximiz daha zəngindir. Ancaq çimərliklərin çirkli olması bu üstünlüklərə mənfi təsir edir. Turistləri cəlb etmək üçün çimərliklər normal vəziyyətə gətirilməlidir. Rusiyanın özündə də bu problemlər var. Hesab edirəm ki, bu məsələlər təhlil olunmalıdır. Qiymətlər münasib, servis səviyyəsi yüksək və çimərliklər təmiz olsa, o zaman Azərbaycan və Rusiya arasındakı yeni turizmin marşrutları daha səmərəli nəticə verəcək".

## *"Qiymətlər münasib, servis səviyyəsi yüksək və çimərliklər təmiz olsa, o zaman..."*

***Vidadi ORDAHALLI***